| | | | |
|---|---|---|---|
| **Ümumi məlumat** | **Fənnin adı, kodu və kreditlərin sayı** | AZLL 106, Müasir Azərbaycan dili 6 AKTS | |
| | **Departament** | Dillər və ədəbiyyatlar | |
| | **Proqram (bakalavr, magistr)** | Bakalavriat | |
| | **Tədris semestri** | Payız, 2024 | |
| | **Fənni tədris edən müəllim(lər)** | Elza İsmayılova | |
| | **E-mail:** | elzaxanim@yahoo.com | |
| | **Telefon:** | 0504603471 / (012) 3717969 | |
| | **Mühazirə otağı/Cədvəl** | IV, VI günlər | |
| | **Məsləhət saatları** | Tələbələrlə razılaşdırılmış vaxtda | |
| **Prerekvizitlər** | **Yoxdur** | | |
| **Tədris dili** | **Azərbaycan dili** | | |
| **Fənnin növü (məcburi, seçmə)** | **Məcburi** | | |
| **Dərsliklər və əlavə ədəbiyyat** | **Əsas ədəbiyyat:**<br>Axundov A. (1984). Azərbaycan dilinin fonetikası. Bakı: Maarif.<br>Dəmirçizadə, Ə. (2007). Müasir Azərbaycan dili (fonetika, orfoepiya, orfoqrafiya). I hissə. Bakı: Şərq-Qərb.<br>Xəlilov B. (2013). Müasir Azərbaycan dili (fonetika, yazı, əlifba, qrafika, orfoqrafiya, orfoepiya). Bakı: Çap evi.<br>Qurbanov, A. (2010). Müasir Azərbaycan ədəbi dili. I cild. Bakı: Elm və təhsil<br>Qurbanov, A. (2019). Müasir Azərbaycan ədəbi dilinə dair praktikum. 2 cilddə, I cild. Bakı.<br>Müasir Azərbaycan dili. I cild (1978). Bakı: Elm.<br>Yusifov M. (2012). Azərbaycan dili fonetikasının əsasları. Bakı: Elm və təhsil.<br><br>**Əlavə ədəbiyyat:**<br>Ağayeva F. (1978). Azərbaycan dilinin intonasiyası. Bakı.<br>Axundov, A. (1973). Müasir Azərbaycan dilinin fonemlər sistemi. Bakı: Maarif<br>Azərbaycan dilinin orfoqrafiya lüğəti (2021). Bakı: Elm.<br>Bəşirova A. (1994). Azərbaycan dilində vurğu. Bakı: Bakı Universiteti nəşriyyatı<br>Əhmədova, A. (2019). Azərbaycan dilindən praktikum. Bakı: Elm və təhsil.<br>Orfoqrafiya-orfoepiya lüğəti (2019). Bakı.<br>Veysəlov F. (1993). Fonetika və fonologiya məsələləri. Bakı: Maarif. | | |
| **Kursun vebsaytı** | | | |
| **Tədris metodları** | **Mühazirə** | **Mühazirə** | |
| | **Qrup müzakirəsi** | **Qrup müzakirəsi** | |
| | **Praktiki tapşırıqlar** | **Praktiki tapşırıqlar** | |
| | **Praktiki məsələnin təhlili** | - | |
| | **Digər** | - | |
| **Qiymətləndirmə** | **Komponentləri** | **Tarix/son müddət** | **Faiz (%)** |
| | **Aralıq imtahanı** | | **30** |
| | **Praktiki məsələ** | | **-** |
| | **Fəallıq** | Fəallığa görə bal final imtahanından əvvəl yazılacaq. | **5** |
| | **Davamiyyət** | Davamiyyət balı tələbənin dərs- də ardıcıl iştirakına görə final imtahanından əvvəl yazılacaq. | **5** |
| | **Yoxlama yazı (İmla)** | Semestrin sonunda yerinə yetiriləcək. | **10** |

| | | | |
|---|---|---|---|
| | **Quiz** | Semestrin sonunda aparılacaq. | **10** |
| | **Final imtahanı** | | **40** |
| | **Digər** | | |
| | **Yekun** | | **100** |
| **Kursun təsviri** | Bu kursda fonetika, onun məqsəd və vəzifələri, növləri, əhəmiyyəti, Azərbaycan dilinin fone -tik quruluşu və fonemlər sistemi, fonetik transkripsiya, səs, səsin fiziki (akustik), fizioloji, icti- mai əlamətləri, danışıq səsləri və onların təsnifi, Azərbaycan dilinin saitlər və samitlər siste- mi, heca, vurğu, avazlanma, intonasiya, Azərbaycan dilində fonetik hadisə və qanunlar, yazı, əlifba, qrafika, orfoqrafiya, orfoepiya və s. öyrəniləcək. | | |
| **Kursun məqsədləri** | Kurs müasir Azərbaycan dili fonetikasının əsaslarını tələbələrə öyrətmək üçün aşağıdakı məq- səd və vəzifələri həyata keçirməyi nəzərdə tutur:<br>1. Tələbələri Azərbaycan dilinin səs sisteminin özəlliyi, fənnin sahələri, digər elmlərlə əlaqəsi, fonem haqqında müxtəlif nəzəriyyələr və s. ilə bağlı tədqiqatyönümlü problemlərə istiqamət- ləndirmək;<br>2. Azərbaycan dilinin saitlər sisteminin ümumi və fərdi fonofizioloji xüsusiyyətləri, onların özəlliyi, tarixi, mənşəyi haqqında ətraflı məlumat vermək;<br>3. Azərbaycan dilinin samitlər sisteminin ümumi və fərdi fonofizioloji xüsusiyyətləri, onların özəlliyi, tarixi, mənşəyi ilə bağlı geniş bilgi vermək;<br>4. Azərbaycan dilindəki fonetik hadisə və qanunların mahiyyəti, onların başvermə səbəbləri, tarixi, dilin inkişafı və qorunmasındakı rolu, bu problemlə bağlı ən son araşdırmalar haqqında elmi-nəzəri məlumat vermək;<br>5. Heca və vurğunun mahiyyəti, bunların digər dillərdəki xüsusiyyətləri ilə tanışlıq, Azər- baycan dilində oynadıqları rol, dilimizdəki özəl cəhətləri və s. barədə biliklərin təqdimi;<br>6. Sintaqmatik fonetika, intonasiyanın mahiyyəti və tipləri barədə tələbələri bilgiləndirmək, onları bu sahənin daha dərindən öyrənilməsinə yönəltmək. | | |
| **Tədrisin (öyrənmənin) nəticələri** | Müasir Azərbaycan ədəbi dilinin fonemlər sistemi daha dərindən mənimsəniləcək, Azərbay- can dilindəki səs sistemi, fonetik hadisə və qanunlar öyrəniləcək, ədəbi dilimizin tələffüz nor- maları izah ediləcək, Azərbaycan dilinin orfoqrafik qaydaları şərh olunacaq, yazı prosesində durğu işarələrinin yerli-yerində işlədilməsi bacarığı formalaşdırılacaq. | | |
| **Qaydalar (Tədris siyasəti və davranış)** | **Fəallıq**:<br>Fəallığa görə bal tələbənin müzakirələrdə iştirakına, semetsr boyu həftəlik dərs proqramına hazırlaşmasına, mövzularla əlaqəli verilən tapşırıqları yerinə yetirməsinə, yeni və əlavə ədəbiyyatlara göstərdiyi marağa görə verilir.<br>**Davamiyyət**:<br>1. Semestr ərzində tələbənin dərsdə iştirakına görə bal verilir. Tələbə fənn üzrə bütün dərslərdə iştirak etdiyi halda ona 5 bal yazılır.<br>2. Davamiyyətə ayrılmış baldan üzrsüz buraxılan bir dərs üçün 1 (bir) bal çıxılır.<br>3. Semestr ərzində fənn üzrə ayrılmış auditoriya saatlarının 25 faizindən çoxunda iştirak etməyən tələbə həmin fəndən imtahana buraxılmır.<br>**İmtahan haqqında:**<br>1.İmtahana hazırlaşarkən dərslərdə götürülmüş qeydləri öyrənməklə yanaşı, dərsin iş planında göstərilmiş ədəbiyyatlara, o cümlədən başqa mənbələrə də müraciət etmək lazımdır.<br>2.İstifadə ediləcək ədəbiyyatın bir qismi tərəfimizdən təmin ediləcəkdir.<br>3.Aralıq və Final imtahanlarında suallar çalışmalar şəklində olacaqdır. | | |
| **Cədvəl (dəyişdirilə bilər)** | | | |

| **Həftə** | **Tarix (planlaşdırıl-mış)** | **Fənnin mövzuları** | **Dərslik / Tapşırıqlar** |
|---|---|---|---|

| | | | |
|---|---|---|---|
| 1. | 19.09.2024 | Dil haqqında ümumi məlumat. Azərbaycan dilinin tarixi kökləri. Azərbaycan dilinin türk dilləri qrupundakı yeri. Müasir Azərbaycan ədəbi dilinin formaları. | Ə. Dəmirçizadə. Müasir Azərbaycan dili. I hissə (bundan sonra – Dəmirçizadə), s. 5-7<br>A. Qurbanov. Müasir Azərbaycan ədəbi dili. I cild (bundan sonra – Qurbanov), s. 8-22<br>B.Xəlilov. Müasir Azərbaycan dili (fonetika, yazı, əlifba, qrafika, orfoqrafiya, orfoepiya) (bundan sonra – Xəlilov), s. 3-14 |
| 2. | 26.09.2024 | Azərbaycan ədəbi dilinin fonetikası, növləri, tədqiqat üsulları. Fonetik transkripsiya | Qurbanov, s. 47-53; Xəlilov, s.15-38<br>Çalışmalar üzərində iş |
| 3. | 3.10.2024 | Səs, fizioloji mənbələri və əlamətləri. Danışıq səsi və fonem anlayışı. Danışıq səslərinin təsnifi | Dəmirçizadə, 8-13; Qurbanov, s. 47- 69; Xəlilov, s. 39-65<br>Çalışmalar üzərində iş |
| 4. | 10.10.2024 | Müasir Azərbaycan ədəbi dilinin saitlər (vokalizm) sistemi, əsas xüsusiyyətləri. Azərbaycan ədəbi dilindəki samitlərin bölgüsü və əsas xüsusiyyətləri | Qurbanov, s. 70-77; Xəlilov, s. 66-88<br>Çalışmalar üzərində iş |
| 5. | 17.10.2024 | Müasir Azərbaycan ədəbi dilinin samitlər (konsonantizm) sistemi. Azərbaycan ədəbi dilindəki samitlərin bölgüsü və əsas xüsusiyyətləri | Dəmirçizadə, 34-51; Qurbanov, s. 77- 83; Xəlilov, s. 89-94<br>Çalışmalar üzərində iş |
| 6. | 24.10.2024 | Azərbaycan dilində fonetik hadisə və qanunlar | Qurbanov , s. 87-100; Dəmirçizadə, s. 99-122; Xəlilov, s.132 - 158 |
| 7. | 31.10.2024 | Nitqin fonetik parçaları. Müasir Azərbaycan ədəbi dilində heca, növləri və tipləri. | Qurbanov, s.100-104; Xəlilov, s. 110-131<br>Çalışmalar üzərində iş |
| 8. | 7.11.2024 | Nitq parçalarının mənalı (fonosemantik) səslənməsi. Müasir Azərbaycan ədəbi dilində vurğu, növləri<br>**Aralıq imtahanı** | Dəmirçizadə, s.135-137; Qurbanov, s. 104-108; Xəlilov, s. 158-179<br>Bədii ədəbiyyatdan nümunələr |
| 9. | 14.11.2024 | Sintaqmatik fonetika. Avazlanma (intonasiya) və onun tərkib hissələri. Azərbaycan dilində intonasiyanın tipləri. | A. Axundov. Azərbaycan dilinin fonetikası, s. 335-355; Xəlilov, s.181-193<br>Bədii ədəbiyyatdan nümunələr |
| 10. | 21.11.2024 | Durğu (fasilə). Durğu işarələrinin növləri, işlənmə yeri və qaydaları haqqında | Xəlilov, s.197-211<br>Çalışmalar üzərində iş |
| 11. | 28.11.2024 | Azərbaycan yazısı. Yazının əmələ gəlməsi və tipləri. | Xəlilov, s. 211- 216; Qurbanov, s.217-227 |
| 12. | 5.12.2024 | Əlifba haqqında ümumi məlumat<br>Müasir Azərbaycan əlifbası.<br>**Quiz (Sınaq imtahanı)** | Qurbanov, s. 137-155; Xəlilov, s. 197-231<br>Bədii ədəbiyyatdan nümunələr |
| 13. | 12.12.2024 | Azərbaycan qrafikası haqqında ümumi məlumat. Müasir Azərbaycan əlifbasındakı hərflərin quruluş və formaları<br>**Yoxlama yazı (imla)** | Dəmirçizadə, s. 212-248; Qurbanov, s. 158-163; Xəlilov, s. 227- 231<br>Çalışmalar üzərində iş |
| 14. | 19.12.2024 | Orfoqrafiya haqqında məliumat. Azərbaycan orfo- qrafiyasının tarixi və prinsipləri. Orfoqrafiya qay- daları | Qurbanov, s. 166-185; Xəlilov, s. 231-268<br>Çalışmalar üzərində iş |

| | | | |
|---|---|---|---|
| 15. | 26.12.2024 | Azərbaycan ədəbi dilinin orfoepiyası. Ədəbi tələffüzün mənbələri. Müasir Azərbaycan dili orfoepiyasının əsas qaydaları | Qurbanov, s. 110-125; Dəmirçiza-də, s. 140-207; Xəlilov, s. 271- 299 |
| | | **Final imtahanı** | |